# O KİM İDİ?

—  Anacan, niyə küçədə qalmısan? Evin yoxdurmu? Bu balaca oğlan kimdi? - Qadın başını qaldırıb qarşısmda dayanmış ucaboylu, xoşsifət, mavigözlü kişiyə baxdı. Cavab vermədi.

— Anacan, səninləyəm. Dərdini de. Bəlkə, kömək etdik.

— Nə kömək edəcəksən?! Neçə aydır qapılarda sürünürəm. Heç adamı dinləmirlər də! Dərdimi kimə deyirəm — əlac eləmir. Sən də deyirsən...

Kişi əyilib qadının damarları görünən əllərini ovucları arasına aldı.

— Anacan... Dərdini danış...

Kişinin əllərindən sanki qadının bədəninə, kövrək ürəyinə bir istilik, bir doğmalıq, bir qayğı süzüldü.

Qadın bu doğma təmasdan dil açdı:

—   Evimi aldadıb əlimdən aldılar. Məni dəlixanaya saldılar. Zorla qol çəkdirib məndən razılıq kağızı aldılar. Həyat yoldaşım da Qarabağda şəhid olub... Qalmışıq küçələrdə...

Qadın doluxsundu. Gözləri nəmləndi. Əlləri titrədi. Kişi onun göz yaşlarını silib sinəsinə sıxdı. Doğmalıq və səmimiyyət görən qadın başını onun sinəsinə qoyub hönkürdü:

—  Sizi sağ olun. İndiyəcən kimsədən belə qayğı, belə hörmət görməmişəm.

Kişi dönüb yanındakı adama dedi:

— Qeyd et. Araşdırın. Anaya kömək etmək lazımdır. Mənə məruzə edərsiniz!

Sonra qadına dedi:

— Anacan, sağ ol. Sonra da yanındakı oğlana tapşırdı:

— İş həll olunca bu qadına yaşamağa yer tapın.Vətən uğrunda şəhid olanların ailələri küçələrdə qalmamalıdır. Onlar ən böyük hörmətə və qayğıya layiqdirlər... Uç gün sonra qadının evini özünə qaytardılar. Qadın və oğlu sevincdən ağlayırdı. Qadın evində özünü çox xoşbəxt hiss edirdi.

Bir dəfə qadına baş çəkməyə gəldilər. Ona çoxlu hədiyyələr gətirmişdilər.

Qadın razılıq edib bütün bu işlərin səbəbkarının kim olduğunu soruşdu. Ona dedilər:

— Anacan, o adam xahiş etdi ki, bunu deməyək. O, gözəl bir insandır, deyir ki, bu bizim borcumuzdur.

Onlar gedəndən sonra qadın televizoru açdı. Orada bir kişi danışırdı. Hamı məhəbbətlə ona qulaq asırdı.

Qadın oğlunu səslədi:

— Araz! Araz! Bala, bu həmin o kişi deyilmi?!

Oğlan televizora baxa-baxa sevinclə qışqırdı:

— Anacan! Ana! Bu odur! Heydər babadır. Heydər baba!

Qadın sevinc və həyəcanla televizora yaxınlaşıb onu öpdü:

— Xalqın xilaskarı... Xalqın rəhbəri, xalqın oğlu... Sənə qurban olum...

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B.: Təhsil, 2012. – S. 10-11.***